# Azərbaycanın investisiya imkanları genişlənir



**Azərbaycan son 18 ildə sürətli inkişaf yolu keçib. Ötən müddətdə iqtisadiyyat 3 dəfədən çox artıb, ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılıb. İndiyədək isə ölkədə 513 investisiya təşviqi sənədi verilib. Bu sənədlər üzrə layihələrin ümumi dəyəri 4,6 milyard manat təşkil edib ki, bu da əsasən regionlarda həyata keçirilən layihələrin payına düşüb.**

Bu gün xarici investorların ölkəmizə olan güclü marağı da təsadüfi deyil. Bu, sərmayədarların Azərbaycanın əlverişli coğrafi mövqeyini, böyük tranzit potensialının, müasir infrastrukturunun mövcudluğunu yüksək dəyərləndirmələri ilə bağlıdır.



Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illərdə qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr icra olunub.

Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, hazırda Azərbaycanda bu proseslər uğurla davam edir. Bütün bunlar isə ölkəmizə xarici investisiya qoyuluşuna müsbət zəmin yaradır.

Son illərdə investisiya mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi və gömrük islahatları da davam etdirilib, onlayn vahid ixrac ərizəsi, "Yaşıl dəhliz", elektron məhkəmə, elektron satınalma, tikintidə "bir pəncərə", biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm tədbirlər həyata keçirilib. Bütün bu sistemli yeniliklər isə ölkəmizin Dünya Bankının reytinq hesabatında ilk iyirmiliyə daxil olmasını şərtləndirib.



Dünya Bankı ekspertlərinin fikrincə, respublikamızın belə bir müsbət nəticə əldə etməsi Azərbaycanda 4 sahədə (daşınmaz əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların müdafiəsi, müqavilə intizamı) bizneslə məşğul olmağın daha da asanlaşması ilə bağlıdır.

Göründüyü kimi, hökumət ölkədə investisiya fəaliyyətinin genişləndirilməsinə, biznes mühitinin yaxşılaşdırılmasına, sənaye istehsalının artırılmasına, qeyri-neft sektorunun inkişaf etdirilməsinə ciddi önəm verir. Bu istiqamətdə qarşıya qoyulan əsas hədəflər sərmayə qoyuluşlarının artırılması, sahibkarların ixrac potensialının gücləndirilməsi, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsidir.

Bakı Konqres Mərkəzində noyabrın 15-də "Azərbaycan: Asiyanın incisi" şüarı ilə keçirilən 25-ci Beynəlxalq Biznes Forumda (İBF - İnternational Business Forum) da ölkəmizin investisiya imkanları, o cümlədən işğaldan azad olunmuş ərazilərimizin zəngin potensialını xarici sərmayədarlara təqdim etmək, iştirakçı ölkələr arasında iqtisadi-ticarət əlaqələrini, biznes sahəsində əməkdaşlığı genişləndirmək barədə ətraflı danışılıb.

Tədbirdə Azərbaycan iqtisadiyyatının sürətli inkişaf mənzərəsi, eləcə də sabit makroiqtisadi vəziyyətin ölkəmizdə biznes layihələrin icrası istiqamətində qərarların verilməsində mühüm rol oynadığı vurğulanıb.

Hazırda Azərbaycanın strateji valyuta ehtiyatları sahəsində də müsbət dinamika diqqət çəkir. Bu gün ölkənin strateji valyuta ehtiyatları 52 milyard ABŞ dollarını ötür. Ekspertlər tərəfindən bu göstəricinin ÜDM-ə nisbətinin 108 faiz olduğu və xarici dövlət borcunu 6 dəfədən çox üstələdiyi bildirilir.

Ümumiyyətlə, son beş ildə (2016-2020-ci illər) Azərbaycanın strateji valyuta ehtiyatları 12,8 milyard ABŞ dolları və ya 34,5 faiz artıb. Bu barədə Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) 2020-ci il üzrə hesabatında bildirilir ki, 2016-cı ildə ölkənin strateji valyuta ehtiyatları 37,1 milyard dollar təşkil edirdisə, 2020-ci ildə onların həcmi 49,9 milyard dolladək artıb.

Qeyd edək ki, ölkənin strateji valyuta ehtiyatları Azərbaycan Mərkəzi Bankının rəsmi valyuta ehtiyatları və Neft Fondunun aktivlərinin məcmusudur.

Hesabata əsasən, 2016-2020-ci illər ərzində ARDNF-nin aktivləri 33,2 milyard dollardan 43,6 milyard dolladək yüksəlib (10,4 milyard dollar və ya 31,3 faiz artıb).

Hesabat dövründə Mərkəzi Bankın valyuta ehtiyatlarının kəskin artımı da müşahidə olunub. Belə ki, 2016-2020-ci illər ərzində AMB-nin valyuta ehtiyatları 4 milyard dollardan 6,4 milyard dolladək artıb (2,4 milyard dollar və ya 60 faiz artıb).

Son illərdə respublikada sənayenin inkişafına xüsusi diqqət yetirilib. Bu sahədə sənaye zonaları, investisiya təşviqi sənədi kimi mütərəqqi alət və mexanizmlərin tətbiq edilməsi mövcud inkişafı daha da sürətləndirib. Artıq sənaye zonalarına 6,7 milyard manat investisiya yatırımı nəzərdə tutulub, indiyədək isə 6,3 milyard manat investisiya qoyuluşu həyata keçirilib.

Cari ilin 9 ayında qeyri-neft ixracında ən yüksək göstəriciyə- 41 faizədək artıma nail olunub. Qeyri-neft sənayesi məhsulları ixracı 1,6 dəfə artıb. Sənaye məhsulları ixracının 320 milyon dolları sənaye zonalarının payına düşüb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə çoxdur.

İndiyədək sənaye zonalarında 5 milyard manatdan çox məhsul istehsal edilib. Bunun 1,4 milyard manatlıq hissəsi və ya təxminən 28 faizi ixrac olunub.

Cari ilin 9 ayında isə sənaye zonalarında məhsul istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 55,4 faiz artaraq 1,5 milyard manatdan çox, ixrac isə 2 dəfə artımla 545 milyon manat təşkil edib. Bu dövrdə sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 14,3 faiz, ixracında 25,9 faiz olub.

Prezident İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxşaxəli islahatlar, kompleks tədbirlər sayəsində əldə olunan bütün bu uğurlar onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı 2022-ci ildə də inkişaf dinamikasını qoruyub saxlayacaq və iqtisadi artımın müsbət meyilləri davam edəcək.

Yeri gəlmişkən, gələn il üçün dövlət büdcəsinin gəlirləri (26 milyard 407 milyon manat və ya 15 milyard 533 milyon 500 min dollar) ölkəmizin reallıqları əsas götürülməklə proqnozlaşdırılıb. Xərclərin (29 milyard 879 milyon manat və ya 17 milyard 575 milyon 900 min dollar) istiqaməti isə Azərbaycanda ardıcıllıqla həyata keçirilən siyasətin prioritetləri nəzərə alınmaqla müəyyənləşdirilib.

***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 23 noyabr.- S.10.